# Mənim üçün ən mötəbər örnək

Səbinə ƏLİZADƏ,
*ADPU-nun müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*

## Qərara gəldim ki, babamın yolunu davam etdirim



**Əbdül ƏLİZADƏ: "Xalqımızın birliyi, Vətən torpaqlarının azad edilməsi, Azərbaycanımızın daha da çiçəklənməsi mənim ən böyük arzum, istəyimdir. Mən bir psixoloq kimi xalqımın, dövlətimin qüdrətinə inanıram və ona övlad məhəbbətimlə fəxr edirəm".**

Azərbaycanda psixologiya elminin görkəmli nümayəndəsi, əməkdar elm xadimi, şərəfli, özünəməxsus bir ömür yaşamış professor Əbdül Əlizadə öz sahəsində məktəb yaradan alimlərdəndir. Onun haqqında xatirə yazmaq nə qədər çətindirsə, elmi yaradıcılığına, pedaqoji fəaliyyətinə nəzər salmaq bir o qədər şərəflidir.

Mənim uşaqlıq və gənclik illərim babamın yanında keçib. Ailəsinə, övladlarına, nəvələrinə qarşı son dərəcə həssas və qayğıkeş olan Əbdül babam heç vaxt bizə acıqlanmaz, hər birimizə sonsuz sevgi ilə yanaşardı. Amma biz həmişə babamızdan çəkinər, ona hörmət və ehtiram göstərərdik.

### Uşaqlıq illərim ən çox babamın kitabları ilə yadımda qalıb

Uşaqlıq illərim ən çox babamın kitabları ilə yadımda qalıb. Onun çox zəngin kitabxanası var idi. Babam psixologiya, pedaqogika, fəlsəfə üzrə Azərbaycan və rus dillərində çıxan bütün yeni elmi ədəbiyyatı alıb oxuyardı. Demək olar ki, hər həftə bir neçə yeni kitab alardı. Onun kitabxanasında psixologiya və pedaqogika üzrə nadir kitablar, yenicə çapdan çıxmış çox sayda monoqrafiyalar vardı. Babam məşğul olduğu elmi sahə üzrə Azərbaycanda və Rusiyada dərc olunan dövri nəşrləri də müntəzəm şəkildə əldə edər, elmin yeni nailiyyətləri ilə tanış olardı. Mən də gözümü açandan bu kitabların əhatəsində olmuşam. Özüm də hiss etmədən böyüdükcə bu mühitə, babamın kitablarına daha çox öyrəşirdim. Babama qarşı tükənməz sevgim və heyranlıq hissim, bəlkə də, onun məşğul olduğu elmə maraq göstərməyimə səbəb oldu. Müntəzəm şəkildə babamın kitablarını oxuyurdum, zaman keçdikcə isə bu kitablar məni daha çox özünə cəlb edirdi. Bu minvalla psixologiya elminə marağım günü-gündən artırdı. Qərara gəldim ki, bu elmlə ciddi məşğul olum və babamın yolunu davam etdirim. Bakı Dövlət Universitetinin psixologiya fakültəsinə qəbul olundum. Babam bu nailiyyətimə çox sevindi. Tez-tez dərslərimlə maraqlanar, psixologiya elminin sirlərinə daha dərindən bələd olmağım üçün mənə dəyərli məsləhətlər verər, necə deyərlər, "ustad dərsləri" keçərdi. Bu yolla o mənə həqiqi elmə xidmət etməyi öyrətdi. Babamın yolunu davam etdirdiyimə görə həm də pedaqoji fəaliyyət göstərir, elmi-pedaqoji fəaliyyətimdə babamın yolunu tutmağa çalışıram. Çünki babam hər zaman mənim üçün həm elmi, həm ictimai, həm də şəxsi həyatımda ən mötəbər örnək, nümunə olub və olmaqdadır.

2015-ci ildə babam qəfil dünyasını dəyişdi. Həm ailəmiz, həm də Azərbaycanın elmi-pedaqoji ictimaiyyəti bu itkini çox ağır keçirdi. Ailəmiz babamın kitabxanasını mənə etibar etdi. Bu gün mən onun qiymətli kitabxanasını göz bəbəyim kimi qoruyub-saxlamağa və bacardığım qədər zənginləşdirməyə çalışıram, hər həftə olmasa da, ayda bir neçə yeni kitab alıram.

### Babam haqqında yalnız xoş sözlər eşidirəm

Yaxşı yadımdadır, babam günün çox hissəsini iş otağında oturub işləyərdi. Tez-tez tələbələri, aspirantları və dissertantları bizə gələr, babam onlarla birgə oturub saatlarla çalışardı. Hər dəfə dostlar, tanışlar, qohumlar, alimlər və tələbələri onun haqqında danışanda, sözün əsl mənasında, babamla fəxr edirəm. Məni ən çox sevindirənsə odur ki, babam haqqında deyilən xoş sözlərin heç biri qeyri-səmimi deyil. Nəinki sağlığında, dünyasını dəyişdikdən sonra da babam haqqında yalnız xoş sözlər eşidirəm. Babamdan söz düşəndə istər yaşlı alimlər, orta nəslin nümayəndələri, istərsə də gənclər onun barəsində birmənalı şəkildə "xeyirxah insan, bütöv şəxsiyyət, görkəmli alim, həqiqi müəllim" ifadələrini yorulmadan işlədirlər.

Azərbaycan psixologiya elminin sayılıb-seçilən nümayəndələrindən olan babam şəxsiyyət, vətəndaş və ailə başçısı kimi də çoxlarına nümunə ola biləcək bir insan idi. O, haqq-ədalət tərəfdarı idi və ömrü boyu daim bu prinsipinə sadiq qalıb. Ədaləti və həqiqəti müdafiə edən, dürüstlüyü ilə seçilən babam alim adını, namuslu əməyini, əsl ziyalı mövqeyini ömrünün sonuna qədər qoruyub saxlaya bilib. Psixologiya üzrə elmlər doktoru, professor, millət vəkili Səməd Seyidov babam haqqında "sağlığında öz heykəlini yaratmış insan" ifadəsini işlədib. Zaman keçdikcə görkəmli alimin bu fikrinin dəqiqliyini, miqyasını və həqiqətini daha aydın şəkildə dərk edirəm. Doğrudan da, babam öz zəhməti, çalışqanlığı, istedadı, elmi, savadı, xeyirxah əməlləri ilə xalqımızın, həmkarlarının, tələbələrinin xatirəsində özünə heykəl qura bilib. Sevgidən yaranmış Əbdül Əlizadə heykəli...

### O, həm də əsl müəllim idi

Babamı yaxından tanıyanlar indi də deyirlər ki, o, təmənnasız yaxşılıq edən, hər kəsə faydası dəyən şəxsiyyət olub. O, görkəmli alim olmaqla yanaşı, həm də əsl müəllim idi, pedaqoji fəaliyyəti dövründə böyük bir psixoloq nəsli yetişdirmişdi. Dərs dediyi tələbələrin əksəriyyəti indi Azərbaycanın tanınmış ziyalıları, elm xadimləri, müəllimləridir.

Babamın halal çörəyi və təmiz adı bizim ailəmiz üçün həmişə örnək, qürur mənbəyi olub. O, həyatda prinsipial alim, təmiz insan, əsl pedaqoq adını uca tutan şəxsiyyətlərdən idi. Babamla birgə çalışmış görkəmli Azərbaycan ziyalıları onun haqqında həmişə məhəbbətlə danışır və ona xas olan qürurverici mənəvi keyfiyyətləri sadalamaqdan yorulmurlar.

Əbdül müəllim elmin qədrini bilən, alim məsuliyyətini uca tutan əsl alimlərdən idi. 60 illik pedaqoji fəaliyyəti dövründə tələbələrinə yalnız psixologiya elminin sirlərini deyil, eyni zamanda peşə etikasını, elmin əsas prinsiplərinə riayət etməyi, şərəf və ləyaqəti, xalqın və dövlətin mənafeyini hər şeydən üstün tutmağı öyrədirdi.

Ailəmiz babamla qürur duyur. Mən də fəxr edirəm ki, onun kimi bir insanın nəvəsiyəm. Bəzən bizlər yaradıcı, istedadlı olan doğmalarımızı cəmiyyətin dəyərləndirdiyi kimi tanıya bilmirik... İllərlə babam haqqında deyilən heyranlıq dolu fikirləri fəxarətli hisslərlə qəbul etmişəm. İnsanın cəmiyyətdə tutduğu mövqe onun obrazını formalaşdırır. Çox vaxt deyirlər ki, tanınmış adamların ictimai mühiti ilə ailə mühiti tamam fərqlidir. Ancaq mənə elə gəlir ki, bu fikri babama şamil etmək olmaz. Doğrudur, babam haqqında bir çox qürurverici həqiqətləri ilk dəfə dostlarından, həmkarlarından, tələbələrindən eşitmişəm. Buna görə də ailəmizdə tanıdığımız babamızla yanaşı, onun cəmiyyətdə, elmi-pedaqoji ictimaiyyətdə və xatirələrdə yaşayan obrazı da bizim üçün çox əzizdir, müqəddəsdir.

### Şəxsi nümunə ilə göstərilən tərbiyə

O, elədikləri yaxşılıqlardan danışmağı sevməzdi. Ancaq bilirəm ki, bütün həyatı boyu hamıya yaxşılıq etməyə, tanıdığı, hətta tanımadığı adamlara belə xeyirxahlıqla yanaşmağa çalışardı. Müdrik adamlar deyib ki, tərbiyənin ən təsirlisi şəxsi nümunə ilə göstərilən tərbiyədir. Babam çox danışmağı, uzun-uzadı əxlaq dərsi keçməyi, ailə-məişət məsələlərinə qarışmağı sevməzdi. Onun ailə üzvlərini danladığı, "tərbiyə dərsi" keçdiyi yadıma gəlmir. Ancaq bizim ailədə hamı öz davranışını babama layiq şəkildə qururdu. Onun davranışı, əxlaqı bizim üçün meyar idi. Əbdül babam öz ziyalı təbiəti, mükəmməl tərbiyəsi ilə böyük nümunə idi. Babamdan gördük-götürdüklərimiz bu gün də bizə gərək olur. İndi, babam fiziki olaraq aramızda olmadığı bir vaxtda da hər zaman ona bənzəməyə çalışıram.

Son dərəcə saf, səmimi, ürəyiaçıq, təvazökar, vətənini, el-obasını sevən, Azərbaycanla fəxr edən Əbdül babam mürəkkəb bir elm sahəsinə, onun hüdudsuz dərinliklərinə baş vurmaq kimi çətin və məsuliyyətli bir işi özünə həyat yolu seçmiş və bu yolda möhtəşəm uğurlar qazanmış, gözəl insan, görkəmli alim, intellektual, əsl ziyalı idi.

Baba və nəvə kimi aramızda olan mənəvi körpü o qədər güclü idi ki... İndi Əbdül babam dünyasını dəyişdikdən sonra bu münasibətin tərifini verməkdə, onun haqqında yazmaq üçün lazım olan sözləri seçməkdə çətinlik çəkirəm. Babam haqq dünyasına qovuşduqdan sonra onun haqqında keçmiş zamanda danışmaq bizim üçün çox çətindir.

### Üç dəfə ağladığını görmüşəm

Vətənpərvərliyi, yurd məhəbbəti onun ən dəyərli mənəvi keyfiyyətlərindən idi. Atam deyir ki, "Mən onu həmişə işləyən görmüşəm. Hətta... xəstə olanda da. İstirahət nədir bilməzdi. Hamı Əbdül müəllimi qürurlu bir insan kimi tanıyır. Heç mən də onun nə vaxtsa əyildiyinin şahidi olmamışam. Təkcə üç dəfə ağladığını görmüşəm - atasını itirəndə, nənəm dünyasını dəyişəndə, bir də Qarabağ torpaqları işğal olunanda".

Əsl ziyalı kimi vətəninə, torpağına bağlı olan babamın ən böyük nisgili Qarabağ dərdi idi. Qarabağın gözü Şuşada, xanəndələr yurdu Malıbəylidə doğulan babam torpaqlarımızın düşmən tapdağı altında qalmasına dözə bilmirdi.

Əbdül babam "olum və ölüm" adlanan zaman məsafəsində belə baba idi...

O, görkəmli alim, obyektiv təfəkkür sahibi idi...

Düşüncə aləmi ilə duyğusal dünyası bir-birinə o qədər möhkəm hörülmüşdü ki...

O, tutduğu yeri, daşıdığı missiyanı ucaldanlardan idi...

Halal hörmət, misilsiz etimad qazanmışdı...

Yazdıqları ailəni, insanı araşdıran, saflaşdıran, ucaldan əsərlər idi...

Bu əsərlər yaşayırsa, deməli, babam da öz virtual həyatını yaşamaqdadır...